**Xalq qəzeti.** - 2019.- 18 dekabr. - № 281. - S. 14.

# Bakı Dövlət Universitetinin dövlətçilik tariximizdə rolu və xidmətləri

**Alxan Bayramoğlu,**
BDU jurnalistika fakültəsi mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru

Xalqımız bu yaxınlarda Azərbaycan Xalq Cümhriyyətinin qiymətli yadigarlarından biri olan Bakı Dövlət Universitetinin yaradılmasının 100 illiyini böyük təntənə ilə qeyd etdi. Doğrudan da, 100 il əvvəl Bakı Dövlət Universiteti ölkəmizdə sıradan bir ali təhsil ocağı kimi deyil, Azərbaycan Xalq Cümhuriyyətinin dünya birliyi tərəfindən tanınması üçün irəli sürülmüş prinsiplərdən birinin gerçəkləşdirilməsi faktı kimi ərsəyə gəlmiş, dövlət müstəqilliyimizin bərpası, sonrakı dövrdə dövlətçilik irsinin yaşadılmasının önəmli amillərindən biri olmuşdur.

Bütün bunları nəzərdə tutan Prezident İlham Əliyev isə BDU-nun 100 illiyi münasibətilə təntənəli yığıncaqda bildirdi: "Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmişdir. Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil. Baxmayaraq ki, gənc respublika böyük çətinliklərlə üzləşmişdi və ölkə ərazisinə tam nəzarət edə bilmirdi, bu qərar bir daha respublikanın niyyətini, qurucuların siyasətini əks etdirir. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir".

1918-ci ilin 28 mayında qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə Azərbaycan xalqının dövlət müstəqilliyi elan olunmuş və bir neçə dövlət xalqımızın suverenliyini tanımışdı. Lakin beynəlxalq aparıcı qüvvələr, I Dünya müharibəsindən sonra dünyanın xəritəsini yenidən müəyyənləşdirib təsdiq edən supergüclər AXC-nin varlığının etiraf edilməsi barədə qərar verməmişdilər. Yeni elan olunmuş digər dövlətlər kimi Azərbaycan cümhuriyyətinin də nəzəri Parisə, Versal sarayında aparılan sülh danışıqlarına dikilmişdi.

I Dünya müharibəsindən sonra yeni yaradılmış müstəqilliklərinin tanınması üçün 14 maddəlik prinsip (V.Vilson prinsipi) irəli sürülmüşdü. Dövlət müstəqilliyi iddiasında olan hər bir xalq özünün bütün əqli, mədəni, intellektual, tarixi, siyasi və digər parametrlərinə görə həmin prinsiplərə cavab verdiyini sübut etməli idi.

Azərbaycan nümayəndə heyəti Parisə çatan kimi, dərhal işgüzar diplomatik fəaliyyətə (rəsmi görüşlər, danışıqlar, bəyanatlar vermək və s.) başlamışdı. Eyni zamanda, Azərbaycan həqiqətləri haqda beynəlxalq ictimaiyyətdə lazımi rəy formalaşdırmaq üçün Parisdə müxtəlif dillərdə fransız, ingilis, italyan, ispan və s. dillərdə məqalələr çap etdirilmiş, kitabça və bülletenlər nəşr etdrililib yayılmış, görüşlər, tədbirlər təşkil edilmişdi.

Həmin işlərə ölkə daxilində də dəstək verilmiş, milli mətbuat orqanlarında Azərbaycan dövlətinin və xalqının siyasi, mənəvi, mədəni, iqtisadi və digər baxımdan mövcudluğuna dair məqalələr çap etdirilmiş, təşkilati tədbirlər həyata keçirilmişdi. "Azərbaycan" qəzetinin 1 dekabr 1918-ci il tarixli nömrəsində baş redaktoru əvəz edən Üzeyir bəy Hacıbəyli "Mühüm məsələlər" başlıqlı məqaləsində həmin zəruri tədbirləri nəzərdə tutaraq yazılmışdı: "Azərbaycan türkləri və bizim Azərbaycan hökumətimiz laqeyd qalsaq, mat-mat baxıb dursaq və bütün ümidimizi sülh konfransına yığılanların insafına və ya lütf və mərhəmətinə bağlasaq, düşmənlərimizin hiylə və təzvirlərində müvəffəq olacaqlarına şübhə edilməməlidir. Sülh konfransında hüquq paylamayacaqdırlar ki, biz də növbədə durub payımızı gözləyək!

Sülh konfransına yığılan millətlər özlərinin hər bir siyasi və milli hüquqa layiq olduqlarını isbata çalışıb məhz öz millətləri haqqında deyib danışacaqdırlar".

Üzeyir bəy doğru olaraq göstərmişdi ki bütün xüsusiyyətlərimizi, məziyyətimizi təfsilatilə Avropaya bildirib, müstəqil yaşamağa və müstəqil bir hökumət təşkilinə kamalınca layiq olduğumuzu isbat etməliyik ki, sülh konfransına gedən nümayəndələrimiz milli hüquqi-siyasi imtahanından asanlıqla keçib vətənimizə qayıdarkən əllərində istiqlal şəhadətnaməsi olsun!

Lakin işlərin gedişi, Paris Sülh konfransında cərəyan edən siyasi, hüquqi, diplomatik və digər hadisə və proseslər göstərmişdi ki, dövlət müstəqilliyimizin böyük dövlətlər, beynəlxalq qüvvələr tərəfindən tanınıb, qəbul və təsdiq edilməsi üçün yuxarıda göstərilən məziyyətlər, keyfiyyət və qabiliyyətlər heç də yetərincə deyilmiş. Avropa dövlətləri və Amerika hər bir millət və dövlətdən konstitusiyalı idarəetmə sistemi, cəmiyyətdə və idarəetmədə qadınların kişilərlə hüquq bərabərliyi, hüquqi dövlət, məhkəmə və ədliyyə, Avropa miqyaslı ali təhsil ocaqlarının – universitetlərin varlığını və digər məsələlərin ölkə daxilində həllini tapmasını da əsas şərtlər sırasına daxil etmişdi.

Lakin Avropa tipli universitetin mövcudluğunun həm də dövlət müstəqilliyimizin, istiqlalımızın beynəlxalq qüvvələr tərəfindən tanınıb, qəbul edilməsi üçün əsas göstəricilərdən biri olduğunu bilən daxili və xarici bədxahlarımız milli universitetin təsisi və təşkili işinə hər vəchlə mane olmağa çalışmış, özlərinin çirkin, düşmən niyyətlərini gizlətmək, ona tamamilə başqa don geyindirmək üçün müxtəlif bəhanələr gətirmişdilər. Bildirmişdilər ki, guya, biz hələ heç bir cəhətdən universitet açmağa hazır deyilik; nə müdavimlərə universitet səviyyəli dərs deyə biləcək milli kadrlarımız var, nə də belə bir səviyyədə təlim ala biləcək gənclərimiz. Ona görə milli universitetin təsisi və təşkili hələ çox tezdir, mümkün deyil.

Görkəmli poliqlot alim və jurnalist Məhəmməd ağa Şahtaxtlı həmin günlərdə “Azərbaycan” qəzetində dərc etdirdiyi “Azərbaycanda darülfünun” başlıqlı məqaləsində bədxahların iç üzlərini açıb tutarlı dəlillərlə bizdə milli universitetin təsisinə lazımi imkan və şəraitin olduğunu tutarlı dəlillərlə əsaslandırmış, milli universitetin təsisinin həm də beynəlxalq hüquq normalarına sahiblənməyimizin təminatçılarından biri kimi zəruriliyini bildirmiş, təşkilati tövsiyyə və məsləhətlərini də söyləmişdi: “Şimdilik darülfünun bizim içimizdə ancaq rus professorlarından təşkil edilə bilər. Özümüzün professorlarımız yoxdur. Bizim Azərbaycan studentləri isə hal-hazırda ancaq rus lisanı bilirlər və bu lisanda ali təhsil edə bilərlər. Ona görə ictimai və siyasi zərurət bizdən onu istəyir ki, bu rus fazillərindən istifadə edib rusca tədris edəcək darülfünun açalım”.

M.Şahtaxtlı onu da əlavə etmişdi ki: “Fəqət daima olmaq üzrə ali təhsilin əcnəbi lisanda kəsb olunacağı işimizə əl verməz. Ona görə əvvəlinci günündən belə təzə və rus dilində açacağımız darülfünunumuzu milliləşdirməli və türkləşdirməliyik. Darülfünunumuzu deyil, idarələrimizin hamısını türkləşdirməliyik”.

Doğrudan da, 1919-cu ilin noyabrında fəaliyyətə başlayan Azərbaycan (hazırkı Bakı Dövlət) Universitetində dərslər əsasən rus dilində keçilməyə başlanılsa da, elə ilk günlərdən Azərbaycan Cümhuriyyəti hökuməti ölkədə bütün rəsmi dövlət idarələri və tədris müəllisələri kimi ilk universitetimizin də milliləşdirilməsi, daha doğrusu, orada dərslərin Azərbaycan türkcəsində (dövlət dilində) keçilməsi istiqamətində əməli işlər görməyə başladı. Buraya ilk növbədə universitetin milli kadrlarla təchiz edilməsi daxil idi.

Abdulla Şaiqin 1919-cu ildə qələmə aldığı bir pərdəlik “Tələbə həyatı” adlı pyesinin qəhrəmanı, darülfünun tələbəsi Saleh xüsusi komissiya qarşısında imtahan verməyə hazırlaşır. Onun məqsədi professor statusu qazanıb universitetdə Ana dilində dərs deməkdir. Salehin dayısı, müəllim Cəmil bəy ona kömək etmək məqsədi ilə türk dilində kitablar gətirir. Salehin universitetdə türk professoru olmağa hazırlaşmasını onun tələbə yoldaşları da təqdir edib alqışlayırlar: “Yaşasın Azərbaycan darülfünunun türk professoru Saleh bəy!”

Göründüyü kimi, 100 il əvvəl Azərbaycanın dövlət müstəqilliyinin təsdiq olunması üçün onun ali təhsil şəbəkəsi yaratmış xalq olması önəmli şərt kimi irəli sürüləndə vəziyyət bax belə idi. Lakin xalqımız, nə qədər çətin olsa da, nəinki ilk universitetini uğurla qurdu, ötən bir əsrdə onlarla digər ali təhsil ocağını da yaratdı. BDU-nun 100 illiyinin ölkəmizdə və xaricdə təntənə ilə qeyd olunması bu tarixi uğurlara bugünümüzdən baxışla əlamətdar oldu.

Yubiley toplantısında bildirildi ki, 100 il əvvəl cəmi 2 fakültə, 44 nəfərlik professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitetdə bu gün 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, 3 elmi tədqiqat mərkəzi, 30-dan çox elmi tədqiqat və tədris laboratoriyası, Qazax filialı, “Gənc istedadlar” liseyi, 2 tədris-təcrübə bazası fəaliyyət göstərir. Universitetdə ali təhsilin bütün səviyyələrində 24 mindən çox tələbə təhsil alır. Tədris Azərbaycan, rus, ingilis və qismən alman dillərində aparılır. Üç mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 17 nəfər Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvü, 300 nəfərə qədəri elmlər doktoru, professor, 1000 nəfərə qədəri fəlsəfə doktoru, dosentdir.

Bakalavriat səviyyəsində 66 ixtisas, magistratura səviyyəsində 235 ixtisaslaşma və doktorantura səviyyəsində 114 ixtisas üzrə yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığı həyata keçirilir. Xüsusi dövlət proqramına uyğun olaraq magistratura və doktorantura səviyyələrində dünyanın bir sıra qabaqcıl universitetləri ilə ikili diplom proqramları həyata keçirilir. Dünyanın 60-dan çox ölkəsinin 200-dən çox elm və tədris mərkəzi ilə əməkdaşlıq əlaqələri qurulub, birgə elmi-tədqiqat işləri və kadr hazırlığı aparılır.

Elmi və tədris fəaliyyəti ilə yanaşı, universitet bu gün də ölkənin ictimai-siyasi və mədəni həyatında kifayət qədər fəal iştirak edir, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində artıq əbədi müstəqillik əldə etmiş respublikamızda dövlətçiliyin daha da möhkəmləndirilməsinə, milli şüur və düşüncə tərzinin formalaşmasına dəyərli və sanballı töhfələr verir.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının 176 nəfər həqiqi və müxbir üzvündən 93 nəfəri, Milli Məclisin 117 nəfər üzvündən 46 nəfəri, ali struktur rəhbərlərinin böyük əksəriyyəti Bakı Dövlət Universitetinin məzunlarıdırlar. Bakı Dövlət Universitetinin məzunları tarixboyu ölkə quruculuğunda çox mürəkkəb, məsuliyyətli və eyni zamanda, nəcib missiyanı yerinə yetiriblər və yetirməkdədirlər.

BDU-nun ilk rektoru Vasili Razumovski 100 il bundan əvvəl demişdi: “Yaşa, çiçəklən, var ol, Bakı Universiteti”. Bakı Dövlət Universitetinin indiki rektoru Elçin Babayev isə BDU-nun 100 illiyi münasibətilə yığıncaqda təntənəli surətdə bildirdi: “Yüz il bundan əvvəl yandırılmış məşəl bu gün də öz nuru – universitet məzunları ilə gələcəyə gedən yolumuza işıq saçır. Müasirləşən, dinamik olaraq dəyişən, gəncləşən universitet öz ənənəvi missiyasını şərəf və ləyaqətlə yerinə yetirir.”